# Ulu öndərin təbiət sevgisi və ona qayğısı

**Lənkəranda ekoloq-jurnalist Bəxtiyar Hüseynovun ulu öndərin 100 illiyinə həsr etdiyi “Heydər Əliyev və Azərbaycan təbiəti” kitabının təqdimetmə mərasimi keçirilib.**

Ədliyyə Nazirliyi Cənub Regional İdarəsinin və Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin birgə təşkil etdiyi tədbirdə hüquq-mühafizə orqanlarının işçiləri, yaradıcı ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan Azərbaycan Yazıçılar Birliyi Lənkəran şəhər bölməsinin sədri, Prezident mükafatçısı Qafar Cəfərli yeni kitabı ümummilli lider Heydər Əliyevin 100 illiyinə yaradıcılıq töhfəsi kimi dəyərləndirib. O bildirib ki, respublikamızda dahi rəhbərin diqqət yetirmədiyi, qayğı göstərmədiyi bir sahə tapmaq çətindir. Ölkəmizdə yaşanan inqeyd edib.

Çexiya Respublikasının Azərbaycandakı səfiri Milan Sedlaçekinin təbriki də tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Ədliyyə Nazirliyi Cənub Regional İdarəsinin rəisi Taleh Quliyev, Osaküçə kənd sakini, şəhid atası Sübhi Hümmətov, Qızılağac Milli Parkının direktoru Aqil Sucayev, iş adamı Şaiq Həsənov və digər natiqlər ümummilli lider Heydər Əliyevin təbii sərvətlərimizin mühafizəsinə xüsusi önəm verdiyini, dahi şəxsiyyətin rəhbərliyi ilə qəbul edilmiş ekoloji sənədlərin təbiətimizin qorunmasına yönəldiyi-






diki tərəqqi və inkişafın təməli məhz dahi şəxsiyyətin Azərbaycana rəhbərliyi dövründə qoyulub.

Natiq daha sonra ekoloq-jurnalist Bəxtiyar Hüseynovun “Heydər Əliyev və Azərbaycan təbiəti” kitabının ulu öndərin böyük diqqət yetirdiyi sahələrdən biri olan əsrarəngiz Vətən təbiətindən bəhs etdiyini diqqətə çatdırıb. O, eyni zamanda, kitabda dahi rəhbərin təbiət sevgisinin ön plana çəkildiyini və bununla əlaqədar müəllifin öz publisist düşüncələrini oxucularla bölüşdüyünü ni bildiriblər. Təbiətə qarşı hər hansı bir qəsdin ulu öndəri çox hiddətləndirdiyini qeyd ediblər: “Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir”.

Ulu öndərin bu ibrətamiz fikirləri tədbirdə leytmotiv kimi səslənib.

***Xudaverdi CAVADOV,***
***şair-publisist***

Xalq qəzeti.- 2023.- 18 iyun.- S.5.